# Müstəqillik yolunun 20 Yanvar zirvəsi

Ən yaxın tariximizin şanlı səhifəsi olan 20 Yanvar faciəsindən düz otuz il ötür. Respublikamızın hər yerində olduğu kimi, Şabran rayonunda da 20 Yanvar faciəsinin otuzuncu ildönümü geniş surətdə qeyd olunur. Bu məqsədlə rayon icra hakimiyyəti başçısı tərəfindən xüsusi “Tədbirlər Planı” təsdiq olunmuşdur və hazırda uyğun olaraq rayonun bütün təhsil, mədəniyyət müəssisələrində, idarə və təşkilatlarında silsilə tədbirlər həyata keçirilir.

Rayon Mədəniyyət mərkəzində və filiallarda bu günlər “Tarixin qəhrəmanlıq nümunəsi” , “20 Yanvar milli qürur günümüzdür”, “Azadlıq mübarizəsinin şərəfli səhifəsi” və digər mövzularda “dəyirmi masa”lar, mühazirələr, söhbətlər və foto materiallarından, sənədlərdən ibarət sərgilər təşkil olunur. Mədəniyyət Mərkəzinin Xalq teatrının kollektivi də faciənin ildönümünə həsr olunmuş yeni “Şəhidlik ən uca zirvədir” adlı ədəbi-bədii kompozisiya hazırlamışdır və yanvarın 20-də Şəhidlər Xiyabanında keçiriləcək ümumrayon tədbirində nümayiş olunacaqdır.

Rayon mərkəzi kitabxana sistemi tərəfindən də faciənin ildönümü ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilir. Burada “Şəhidlər ölmür” , “20 Yanvar Azərbaycan xalqının hüzn və milli qürur günüdür” , “Müstəqillik yolunun 20 Yanvar zirvəsi” və sairə mövzularda oxucular konfransı, dəyirmi masa, məktəblilər arasında inşa yazı müsabiqəsi və tematik söhbətlər təşkil olunmuşdur. Mərkəzi Kitabxanada nümayiş olunan “20 Yanvar uşaqların gözü ilə” rəsm müsabiqəsi də böyük maraq doğurur. Kitabxanada həmçinin geniş kitab sərgisi təşkil olunmuşdur. Şəhid ailələri ilə keçirilən görüş də faciənin ildönümünə həsr olunmuş tədbirlərdəndir, həmçinin feal oxucular tərəfindən 20 Yanvara həsr olunmuş əsərlər əsasında “Bu qan yerdə qalmaz” adlı ədəbi-bədii kompozisiya hazırlanmışdır.

Ümumtəhsil məktəblərində də Qanlı Yanvar günü ilə əlaqədar müxtəlif tədbirlər həyata keçirilir. “20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı tədbirlər planı”na uyğun olaraq yanvarın 17-də rayonun bütün ümumtəhsil məktəblərində xüsusi dərslər keçiriləcəkdir.

Yanvarın 20-də rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə “Şəhidlər Xiyabanı” ziyarət olunacaq, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad ediləcəkdir.

**Ziyafəddin BAYRAMOV,**
**“Respublika”.**

Respublika.- 2020.- 16 yanvar.- S.7.